No: 02 2025
http://doi.org/10.64400/ndueej.034
SSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# ÇİNGİZ XANIN ŞİMALİ ÇİN ÜZƏRİNƏ YÜRÜŞÜ

**Əsədli Tuqay**
https//orcid.org.0009-0000-8273-3715
tuqay430@gmail.com
Müəssisə: Kayseri Ərciyes Universiteti,magistrant

**XÜLASƏ**

Tarixin bəzi dövlərində böyük liderlər ortaya çıxır və xalqının taleyini dəyişir.Türklərlə adət-ənənələri, mədəniyyətləri, hətta bir çox əfsanəyə görə qohumluq əlaqələri olan monqolların taleyini dəyişən isə Çingiz xan oldu.Çingiz bir dünya fatehi idi.Makedoniyalı İsgəndər, Atilla kimi həm hərb, həm dövlət idarəçiliyi sahəsində tarixə keçmiş liderlər öz sələflərinin yaratdığı sistem üzərində uğur qazamışlardır.Çingiz isə bu sistemi özü yaratmış, qurduğu dövlətin həm ilk, həm də ən qüdrətli rəhbəri olmuşdur.Çingiz imperatorluğunun sistemini qədim türk dövlətçilik ənənələrinə əsasında yaratmışdı. Çingiz xanın səfərləri çox dağıdıcı olmuş, milyonlarla insan bu yürüşlərdən əziyyət çəkmiş və öldürülmüş, onlarla dövlət və əmirliklər süqut etmiş, yüzlərlə mədəniyyət abidələri dağıdılmışdır.Lakin Çingizin tarixdəki bir çox liderə örnək ola biləcək davranışları da mövcud idi.Hərbi yürüşləri zamanı istifadə etdiyi strategiyalar Çingizin dövrünün irəlisində bir adam olduğunu nümayiş etdirir.Xüsusilə məqalənin mövzusu olan Şimali Çin yürüşü zamanı Çingiz xanın atdığı fərqli addımları və türk və monqol əfsanələrinin ortaq hədəfi olan “dünya fatehliyi” üçün lazımi xüsusiyyətlərini görmək mümkündür Məqalədə Çingiz xanın ilk böyük səfəri olan Şimali Çin yürüşünə hazırlıq prosesi, yürüşün səbəbləri, Tanqut ölkəsinə və Tszin imperatorluğu ilə müharibə zamanı baş verən çətinliklər, yürüşlərin nəticələri haqqında o dövrə aid ilkin qaynaqlardan, avropalı və türk yazıçılar tərəfindən qələmə alınmış əsərlərdən faydalanaraq ətraflı məlumat verilmişdir.

**Açar sözlər:***Şimali Çin, Çingiz xan, kidanlar, Tszin imperatorluğu, tanqut, yürüş, Türk-monqol imperatorluğu*

## Giriş

Monqollar XI-XII əsrlərdə dağınıq halda yaşayan, maldarlıqla məşğul olan, klassik çöl xalqı idi.Bu hal dövlət qurmadan öncəki türklərlə bənzərlik təşkil edirdi.Monqolların bu dövrə qədər heç dövlətləri olmamışdı, yəni dövlətçilik ənənələri yox idi.XII əsrin sonlarına doğru “Monqolların Metesi” deyə biləcəyimiz bir şəxs ortaya çıxdı.Onun adı Timuçin idi.Uşaqlıq illərindən bəri xeyli çətinliklərlə qarşılaşmış, ailəsi və özü bir neçə dəfə qonşu düşmən tayfaların hücumuna məruz qalmışlar.Uşaqlığından bu cür çətinliklərlə qarşılaşan Timuçin, ömrünün irəliləyən çağlarında da daim mübarizə aparmış, qarşısına çıxan “maneələri” aşarkən etdiyi səhvlərdən sözün əsl mənasında dərslər çıxarmışdır.Elə buna görədir ki, Çingiz o dövrün mövcud düşünücələrinin xaricindəki qərarları ilə tarixin ən fəqli xarakterli hökmdarlarından biri və bəlkə də, birincisidir.Çingizin 1206-cı ildə gördüyü işlər və dövləti necə qurması başqa bir araşdırmanın mövzusu ola bilər, amma bunu deyə bilərik ki, “şimalda monqol-türk qəbilələrini bir yerə toplamaq üçün etdiyi müharibələr ona əsgər, sürü və oğlaqlar gətirmişdi.İndi isə növbə əkinçilik və sənaye məhsullarında idi”.Köçəri tayfalar bu məhsullara, demək olar ki, malik olmurdu.Bu tayfaların yaşadığı iqlim əkinçilik üçün əlverişli deyildi.Amma köçərilərin də əkin və ticari məhsullara ehtiyacı vardı.Dövləti qurmazdan əvvəl kiçik və dağınıq halda etdikləri basqınlar ilə özlərinin tələbatını ödəyə bilirdilər.Dövlət daxilində isə hadisələr fərqli cərəyan etməli idi.Bunu çox yaxşı qavrayan Çingiz atını, eyni dövlətlərini quran türklər kimi, zəngin Çin torpaqalarına yönləndirəcəkdi.

Çingizin Çin yürüşü astanasında Çində vəziyyət oldquca gərgin idi.Əslində bu gərginlik heç də yeni deyildi..Güclü Tan sülaləsinin hakimiyyətdən getməsi ilə dövlətdə dalbadal bir neçə gücsüz sülalə hakimiyyəti ələ almış, lakin tezliklə yerlərini başqa sülalələrə buraxmışdılar..X əsrin ilk yarısında şimalda "Beş xanədanlıq dövrü" ikən , cənub "qeyri-qanuni ailələr" tərəfindən idarə olunurdu. 960-cı ildə Çində Çao-Kanq liderliyində hakimiyyəti əlinə alan Sun sülaləsi ölkədə sakitçiliyi bərqərar etmişdi,lakin bu stabillik uzunmüddətli olmamışdır.XI-XII əsrlərdə Çinin şimalı parçalanmış və yeni dövlətlər meydana çıxmışdır.Bunlardan biri Tanqutların qurduğu dövləti idi. "Hələ Tan sülaləsi dövründə onlara Ordos bölgəsində məskunlaşmaq üçün icazə verilmişdi".[3,s.62] Tanqut dövlətinin qurucuları olan Ta-hianq adlı xalqı 8. əsrdə Sarı çayı sahilində yerləşmişdirlər.Onları Tanqut deyə adlandıranlar isə monqollar olmuşdur.Teokratik bir dövlət olduğu təxmin edilir, çünki dövlət rəhbərləri "burhan" ləqəbi ilə adlandırılan rahiblərdir.Adı çin dilində Şi-Hia, tibet dilində isə Minyakdır.Amma avropalı səyyahlar və hətta çinlilər monqolların verdiyi adı-Tanqut adını tibetlilər üçün istifadə edirdilər. 1038-ci ildə Çinin şimal-qərbində dövlətini qurmuş, buddizmi özlərinə rəsmi din kimi qəbul etmiş, öz yazı sistemləri olan (Onların yazı sistemləri tibet yox, çin dili əsillidir, daha ətraflı məlumat əldə edilə bilməmişdir), oturaq həyat tərzi sürən bir xalq olmuşdur. Dövlət dilləri tibet dili idi. [2,s.232-233]Qonşuları olan Leao, daha sonra qurulan Tszin imperatorluğu və cənubdakı Sun imperatorluğu ilə siyasi münasibətləri yaxşı deyildi.

Tszin dövləti XII əsrdə Çinin şimal-şərq bölgəsində qurulmuşdur..Qurucuları Leao xanədanlığı dövründə dövlətdə azlıq təşkil edən curcenlər idi. Bu dövlətin qurucusu kidanlar idi.Müharibəni çox da sevməyən Sun sülaləsinin idarəsindəki Çin curcenlərə dəstək vermiş, curcenlər də 1125-ci ildə Leao xanədanlığında hakim vəziyyətə keçmiş və onun yerində Tszin imperatorluğunu qurmuşdular.Sun imperiyasının yardımlarına baxmayaraq Tszin imperatorluğu Sun sülələsinin şimal paytaxtı hesab olunan Kai-fenq şəhərini ələ keçirmişdir.[3,s.63] Ümumilikdə isə qurulan dövlət əvvəlcədən problemlər içində idi.Çünki, xalqın çoxu kidan xalqına mənsub idi və cürcənləri sevmirdi.Lakin buna baxmayaraq dövlət bölgədə böyük siyasi güc təşkil edirdi.Hətta Çingiz bir müddət onların vassalı olmuş, "1198-ci ildə tatarlarla olan müharibədə Tszin impertorluğuna köməklik etdiyi üçün imperator Vanq Xan ona "ja'utkuri" , yəni sərhəd gözətçisi rütbəsini vermişdi."[4,s.211] Bu çox da qəribsənəcək bir hadisə deyil, çünki bir az əvvəl dediyimiz kimi Tszin imperatorluğu daxilində "çatlaqlar" olan bir imperatorluq idi və bölgədə hakimiyyətini qorumaq üçün şimal tayfalarını bir-biri ilə düşmən edərək birləşmələrinə icazə vermir, zəif olan tayfanı dəstəkləyərək, güclü olanı da zəiflədirdi. Çingizin rəhbərlik etdiyi bəzi monqol tayfaları da bu oyunun qurbanlarından biri idi.Amma 1206-cı ildən etibarən vəziyyət dəyişmişdi, artıq güclü və zəif tayfaların hər biri Çingizə tabe idi.

## Çingiz xanın Tanqut dövləti üzərinə yürüşü[1]

[1] Rene Qrosset öz kitabında Çingizin Şimali Çində yürüş etdiyi ilk dövləti Shi-Hia deyə adlandırmışdı.Elmi ədəbiyyatda Xi-Xia, Hsi-Hsia deyə adlandırmalar da mövcuddur.Məqalədə Əbdülqadir Yuvalının "Çingiz xan" əsərində olduğu kimi Tanqut dövləti adından istifadə edilmişdir.

Əvvəl də bəhs etdiyimiz kimi, monqollar atlı-köçəri tayfa idilər.Buna görə də öz dövlətlərini qurmaq üçün apardıqları müharibələr açıq ərazilərdə, süvarilərin rahat hərəkət etməsilə çox rahat qazanılırdı.İndi isə vəziyyət fərqli idi.Qarşılarındakı rəqib xalq uzun müddət əvvəl oturaqlaşmış və şəhərləşmişdi.

Çingiz xanın Çin səfərindən əvvəl Çinin vahid bir ölkə olmadığını, lakin ərazisində 3 dövlətin olduğundan bəhs etmişdik.Çingiz xan isə ilk hədəf olaraq Tanqut dövlətini seçmişdi.Niyə? Bunun bir çox səbəbləri var:

1.İlk olaraq Tanqut dövləti Çindəki dövlətlərin içərisində ən zəif olan idi.

2.Atalarının qatili olan Kin dövlətinə qarşı nəzərdə tutduğu böyük səfər üçün Tanqut dövlətinin torpaqlarını ələ keçirmək və cürcənləri qərb tərəfdən blokadaya alaraq,şərqdə onları dənizə sıxışdırmaq [5,s.222]

3.O dövrün ən böyük ticarət yolu olan Böyük İpək yolunun Tszin imperatorluğuna uzanan hissəsini nəzarətə götürmək

4.Çingizin ulu bababların məskunlaşma yerini geri alma arzusu[6,s.59]

Tanqutlara qarşı hücumlar 1205-ci ildən etibarən başladı. A.C.Dohsson "Monqol tarixi" adlı əsərində Timuçunin 1205-ci ildəki hücum zamanı Coşi vilayətinin ələ keçirildiyini, elə bu zaman anadan olan nəvəsinin (Ögedayın oğlu) adını Coşi qoyduğu,lakin uşağın erkən vəfatından sonra bölgəyə Tanqut adının verildiyi bildirmişdir.1207-ci ildə başqa bir hücumla irəliləyən silsilədən böyük bir uğur əldə edilmədi. (Bu yürüşlə bağlı A.C.Dohssonun "Monqol tarixi" əsərində Çingizin bir qəbiləni qovalayaraq Tanqut torpaqlarına daxil olduğu və axtardığı qəbiləni tapa bilməsə də, ölkəsinə geri dönərkən yeni ərazilər ələ keçirdiyi ilə bağlı məlumatına rast gəlirik.)[1,s.55-56] Qalaların mühasirəsində uğur qazanmaq üçün lazımi texnikaya və biliklərə sahib olmayan monqollar üçün "kəşfiyyat" xarakterli olaraq qalmışdı.Bunu demək üçün səbəbimiz onların torpaq ələ keçirə bilməməsi deyil.Çünki bəzi kiçikçaplı yürüşlər onların ərazilərini nisbətən olsa da, genişləndirmələrində uğurlu olmuşdur.Hətta ölkənin bir çox şəhərlərini dağıtmış, lakin ölkənin paytaxt şəhərləridən Ninq-hia və Lu-çeu şəhərlərini zəbt edə bilməmişdirlər.[5,s.223] Burdakı əsas problemi isə monqollar öz ölkələrinə qayıtdıqdan sonra bu ərazilərin Tanqut əsgərləri tərəfindən geri alınması idi.Biz buna səbəb olaraq monqolların şəhərləri əllərində saxlamaları üçün istənilən qədər döyüşçülərinin olmaması və şəhərləri ələ keçirdikdən sonra monqolların nə edəcəklərini bilmək üçün təcrübə əksikliklərinin mövcudluğunu göstərə bilərik.

1209-cu ildə Çingiz xan yürüşə 4 "külüg" və 4 "köpəyini" (ordu rəhbərləri sadiq olduqları üçün tarixdə belə tanınırlar) göndərdikdən sonra, 4 oğlu və daha sonra isə özü gəlmişdir.[6,s.59] Bizim bir az öncə bəhs etdiyimiz yürüşlərə nə üçün "kəşfiyyat" deməyimizin səbəbi burada ortaya çıxır.Çünki keçmiş yürüşlərdə şəhərlərin mühasirəsi zamanı çətinliklər çəkdiklərini görən Çingiz xan hücumlarda etdikləri səhvlikləri düzəldərək yeni qala mühasirəsi taktikası kəşf etmişdir.Bu taktikaya görə, ilk əvvəl şəhərətrafı əraziləri ələ keçirərək qala ilə əhatə olunmuş şəhərin digər bölgələrlə əlaqələri kəsilməli və daha sonra qalanın ətrafı mühasirəyə alınmalı idi.Bu yürüşdə Ninq-hia şəhərinin müasirəsi üçün bu taktikadan istifadə

etdiyi zaman Çingizin planları Sarı çayının qalaya tərəf istiqamətləndirilməsi fikrinin qəbul edilməsilə pozuldu.Çünki çay istənilən tərəfə yönləndirilə bilmədi,hətta monqolların qərargahı az qala su altında qalırdı.Bu zaman tanqutların da vəziyyəti heç yaxşı deyildi, üstəlik Tszin imperatorluğundan gözlənilən yardımın da gəlməyəcəyinə əminlik yaranmışdı.Belə vəziyyətdə Tanqut hökmdarı Li-An-Şüan (və ya Li-Nqan-Tsyüan) Çingiz xana sülh təklif etdi Xan lazımi həmlələrin edilə bilmədiyini və belə gedərsə müharibənin uzun müddət davam edəcəyini anladı.Nəticə etibarilə, təklif qəbul edildi, Tanqut hökmdarı Çingiz xana bir Çin şəhzadəsi və başqa hədiyyələr verərək sülhə nail oldu.[4,s.205-206 ]Elmi ədəbiyyatda bu yürüşün zamanı ilə bağlı fərqli düşüncələrə rast gələ bilərik.Məsələn, "Monqolların gizli tarixi" əsərində Çingizin Tanqut (əsərdə bu xalq "Haşin" deyə adlandırılmışdır) xalqı üzərinə yürüşünün 1211-ci ildə olduğunu və hətta yürüşün curcen tayfaları ilə aparılan müharibədə əldə edilən qısamüddətli sülhün ardından baş verdiyi bildirilir.Eyni mənbədə hədiyyələrin əsas qisminin dəvə olduğu da qeyd olunur. [2,s.170-171]

Tanqut hökmdarı Çingizin Çin səfərləri zamanı monqollara dəstək vermiş olsa da, daha sonra Çingizə sadiq olmamışdı.1219-cu ildə Çingizin qərbdəki müsəlman dövlətlərinə qarşı yürüş üçün istədiyi dəstəyi Tanqut hökmdarının rədd etməsi bunun bariz nümunəsidir.Çingiz qərbə yürüşünü tamamladıqdan sonra Tanqut dövləti üzərinə səfər etməyi planlaşdırmış, lakin ömrü vəfa etməmişdir.[2,s.181]

## Çingiz xanın Tszin[2] səfəri

Çingiz Tanqut dövlətini özünə tabe etdikdən sonra istiqamətini Çinin şimal-şərqində yerləşən güclü Tszin imperatorluğuna tərəf yönəltdi.Çingiz xanın yürüşlərindən öncə bir çox ölkələrdə gördüyümüz problemləri Tszin imperatorluğunda da görə bilərik.İmperatorluq daxilində azlıq çoxluq üzərində hakim idi, azlıq cürcenlər, çoxluq kidanlar idi.Zəki Vəlidi Toqan tszinlərin türklərə yaxın bir altay qövmü olduğunu bildirmişdir. [6,s.60] Bu yaxınlıq isə siyasi səhnədə özünü doğrultmur, yanlız etnik kimlik üzərində qalırdı.

Çingiz xan bir zamanlar tatarlara qarşı keraitlərlə birlikdə savaşmış,beləliklə, Tszin imperatorluğuna xidmət etmiş və kiçik bir Çin rütbəsi almışdır.Lakin Çingiz güclənirdi və bu yarımasılılıq vəziyyəti onu narahat edirdi.Çingizin bu vəziyyəti dəyişdirmək üçün bir şansı ortaya çıxdı, 1189-1208-ci illərdə imperator olmuş Ma-ta-ku ölmüş, onun yerinə oğlu Çonq-hei gəlmişdi.O, yeni imperatorun taxta gəlməsini bildirən elçiyə hər il etdiyi xəracvermə və imperator üçün dizçökmə mərasimi həyata keçirməmiş və hətta bir uşağın hakimiyyətini qəbul etməyəcəyini bildirərək şərqə doğru tüpürmüşdür.[5,s.223] Digər mənbələrdən fərqli olaraq A.C.Dohsson kitabında Çingiz xanın Tszin imperatorluğu elçisinə "Tszin imperatoru özünə "Tanrı oğluyam" deyir, o insan belə deyil." dediyini nəql edir.[1,s.65] Bu anı uzun zaman gözləyən Çingiz böyük bir yürüş təşkil edilməsi üçün hazırlıqların başlanması əmrini verdi.Əslində Çigizin bu məsələdə çox da haqsız olmadığını görə bilərik.Çünki imperator əlindəki gücün fərqində olmayan, qorxaq biri idi.Şimalda

[2] "Tszin" sözünü çin dilində "qızıl" mənasını verir.Elə buna görədir ki, "Monqolların gizli tarixi" əsərində Tszin imperatoruna "Altun xan" deyilir.

Çin səddi boyunca qüvvələrini bölməsi də Tszin imperatorluğunun güclü rəqibinə qarşı vəziyyətini pisləşdirirdi.Rene Qrosset əsərində bu vəziyyəti açıqlayan "Çingiz xanın şansı şişirdilmiş və qorxaq düşmənlərə sahib olmasında idi" fikrinə yer vermişdir.[5,s.223] Qeyd edək ki, yazıçının bu nəticəyə gəlməsində Çin yürüşündən sonra baş tutmuş Xarəzmşahlar üzərinə yürüşü zamanı Xarəzmşah Məhəmmədin addımlarının böyük rolu olmuşdur.

Çinə səfər hazırlıqları edən Çingiz isə dövrünün çox böyük dövlət rəhbəri idi.Böyük türk hökmdarlarının bir çoxunda gördüyümüz bir xarakterik xüsusiyyət Çingizdə də var idi, ətrafını diqqətlə dinləmək.Çingiz, demək olar ki, hər şeyi bilmədiyinin fərqində idi.Bunu bir az əvvəl bəhs etdiyimiz Tanqut ölkəsi üzərinə etdiyi yürüşdə də hiss etmişdi.Lakin onun dövrün digər dövlət adamlarından fərqi bilmədiyini qəbul edərək ətrafını dinləməsi və yaşadıqlarından təcrübə qazanması idi.Çingizin bir çox uyğur müşavirinin olması təsdiq olunan bir faktdır.Uyğurlar bəhs edilən dövrün ən mədəni dövlət adamları idi ki, bunun səbəbi çox dərin dövlətçilik tarixlərinin olması ilə bağlıdır.Onlar Ötükən mərkəzli türk dövlətinin son nümunəsini yaratmış bir xalq idilər.Uyğurlardan özünə müşavir təyin etməklə Çingiz özünə necə bir dövlət qurmaq istədiyini o dövrə nəzər saldıqda təxmin etmək mümkündür.Çingiz xan yanız dostlarından yox, köhnə düşmənlərindən də faydalana bilən siyasətçi olmuşdur.Bu xüsusiyyətini biz bir də Hunların hökmdarlarının Çinli generallarını yenidən Çinə qarşı istifadə etməsində görə bilərik.Bu təkcə hunlarla əlaqəli deyil, türk dövlətlərinin bəzilərində də olmuş bir hadisə idi.Çingiz dövründə buna ən böyük nümunə isə Cəbə ola bilər.(Timuçin Camuqa ilə döyüşü zamanı ağır yaralanmış, sevimliağ atı boynundan vurulmuşdur. Əsir alınanlara Timuçin atını dağın arxasından vuranın kim olduğunu soruşmuşdur, cavabında Camuqanın tərəfdarı olan Tayiçiut tayfasından Cirhoadai atı vuranın o olduğunu açıq bir şəkildə etiraf etmişdir. Çingiz "Düşmənliyini gizlətməyən adamdan yaxşı dost olar" deyərək gəncə "silah" mənasını verən Cəbə ləqəbini vermişdir.[2,s.75] ) Bundan başqa Çingiz xanın Çindən əsir aldığı mühəndislərin bilik və təcrübələrindən qərbə doğru etdiyi səfərlərdə istifadə etməsi, Pekinin fəthindən sonra Ye-Lui-Çu-Tsai adındakı kitan əsilli əsiri özünəmüşavir olaraq təyin etməsi və başqa bənzər örnəklərdə Çingiz xanın fərqli xarakterik xüsusiyyətlərə malik olduğunu təsdiq edir. Çünki Çingiz üçün lazımi olan sədaqət idi.(Ye-Lui-Çu-Tsay Çində maliyyə və astrologiya sahəsində təhsil almış bir kidan idi.Monqollar onu əsir götürdükdən sonra Çingiz xanın hüzuruna çıxarılmış, söhbət zamanı "Əmir dəyişdirərəkən sədaqət dəyişdirmədiyini" demiş, bu ifadəni Çingiz çox bəyənmişdi.Sözündə durmuş və ömrünün axırına kimi Çingiz xana sadiq qalmışdır )[4,s.209]

Çingiz xanın Tanuqtların ölkəsini ələ keçirmək üçün plan qurduqda belə Tszin imperatorluğuna edəcəyi yürüşü düşünməsi, hərəkət etmədən öncə 4 gün dağda Göy tengriyə dua etməsi (bu hadisə bəzi mənbələrdə "3 gün dua etdi və dördüncü gün dağdan enərək "Tanrı mənə söz verdi" dedi" deyə nəql edilir [3,s.67]. Bu səfərin əhəmiyyətini ortaya çıxarır [6,s.60]. Bəs Çingiz üçün bu ölkənin digərlərindən fərqi nə idi? Nə üçün bu qədər ciddi hazırlıqlar aparılırdı?

Bunun üçün ilk səbəb cürcenlər ilə Çingiz arasında nəsli bir ədavətin olması idi. Çingizin ulu babalarından olan Ambakay xan (Bu şəxsin kim olması ilə bağlı muxtəlif düşüncələr mövcuddur, Z.V.Toqan onun Çingizin ulu babalarından olduğunu bildirmişdir.[6,s.59] A,C,Dohsson və R.Qrosset kimi alimlər Çingizin Göy Tanrıya duasının daxilində "əmilərim" deyildiyi və adlarının "Ambakay" və "Orkin-barkak" (Dohssona görə Barkan və Hambukai) olduğu nəql edilmişdir.[1,s.224; 5,s.69] ) cürcenlər tərəfindən əsir alınmış, Pekində aşağılanaraq öldürülmüşdür. Ambakayın ölmədən öncəki vəsiyyəti Çingiz üçün böyük bir səbəb ola bilərdi.[4,s.213]

Zəki Vəlidi Toqana görə ikinci səbəb Tszin imperatorluğunun şimal tayfalarına qarşı həyata keçirdiyi "bir-birinə qırdırma" siyasəti idi. Bu siyasətə görə çöldakı tayfalardan zəif olan biri dəstəklənir və dəstəklənən tayfa qızışdırılaraq güclü tayfa ilə müharibə edir, əgər bu tayfa da dəstəklənmə nəticəsində güclənərsə eyni siyasət bu dəfə ona qarşı çevrilir.

Digər bir səbəb isə Tszin imperatorluğunun zənginliyi idi. Tarix boyu Çinin şimalındakı tayfalar Çinin zənginliyinə tamah salmış və ondan faydalanmaq istəmişlər.Dövrünün mühüm ticarət mərkəzlərindən olan Pekinin ticarətə xeyli önəm verən Çingizin planlarının başında yer alması çox da təəccüblü deyildir.

Başqa səbəb kidan tayfalarına yardım etmək idi. Dövlətdəki köhnə mövqelərinə qayıtmaq istəyən bu tayfa yürüş öncəsi Çingiz ilə ittifaq yaratmış və sonra Çingizin ən sadiq müttəfiqi olmuşdur [5,s.224].

Hələ səfərə çıxmamışdan əvvəl Çingiz Tanqut yürüşündəki təcrübələrinə əsaslanaraq, bu müharibənin uzun müddət davam edəcəyini bilirdi.Buna görə də 1211-ci ildə təşkil etdikləri qurultayda xalq bununla bağlı məlumatlandırılmışdır.[4,s.216] Bu fikirdə Çingiz yanılmamışdır, çünki Şimali Çin Çingizin ölümündən 7 il sonra-1234-cü ildə oğlu Ögeday tərəfindən tam hakimiyyət altına alınmışdı.Bir daha qeyd etmək lazımdır ki, bu yürüşün bu qədər uzanmasının səbəbi,bir daha qeyd etmək lazımdır ki, monqolların şəhər qalalarını aşmaq üçün texnika və təcrübələrinin olmaması, Çin kimi böyük bir bölgəni ələ keçirib, eyni zamanda möhkəmlənmək üçün qüvvələrinin azlığı idi.Belə ki, 1211-15-ci illər arasında monqollar şəhəri mühasirə edərək ələ keçirir, daha sonra başqa bir istiqamətdə irəliləmək üçün geri çəkildiklərində şəhəri yenidən Tszin imperatorluğunun orduları geri alırdı. (Rene Qrosset Çingiz xanın ordularının bu paradoksal vəziyyətdən çıxmaq üçün kütləvi halda əhalini öldürdüyünü və sürgün etdirdiyini, təslim olanları hərbi xidmətə cəlb edildiyini bildirir ).Üstəlik çinli mühəndislər istehkamları elə tikirdilər ki, onları aşmaq zaman və insan qüvvəsi baxımından olduqca çətin idi. Başqa bir səbəb isə Kin ordularının misilsiz qəhrəmanlıqlar nümayiş etdirməsi idi.[5,s.224] Bu mənfi cəhətlər əsir alınmış çinli mühəndislərin təcrübələrindən faydalanmaq və işğallar nəticəsində ordunun genişlənməsi nəticəsində ortadan qalxdı.

Yürüş öncəsində Çingizin qüvvələrinə nəzər saldıqda ordunun nizamlı və sistematik hərəkət etdiyini görə bilərik.Bölgə ilə bağlı əsas kəşfiyyat məlumatları tacirlərdən, xüsusilə də müsəlman tacirlərdən alınırdı.[4,s.207] Qeyd edək ki, Çingiz Qərbə doğru etdiyi səfərlərdə də eyni taktikadan istifadə edirdi. Bu

uğurun əsas qaynaqlarından biri idi, çünki hücum edilən yerdə nə ilə qarşılaşacaqları əvvəlcədən bilinir və buna görə tədbir görülürdü.

Çingizin Tanqut ölkəsi ilə etdiyi müharibə tszinlər üzərinə yürüşü üçün ona çox təcrübə qazandırmışdı.Görünür ki, Tszin imperatoluğu Tanqutları sevməsə də, Çingizin buraya yürüşü ilə yaxından maraqlanmışdı. Monqollar Tszin əsgərləri üzərinə gəldikcə onlar açıq ərazilərdən qaçıb qalalara sığınırdılar.

Çingiz 1211-1212 illərində şimaldan hücum edərək Tszin imperatorluğu ilə aralarında olan sərhəd zonalara basqınlar etməklə yürüşə başladı.Çinin daxildəki bölgələrinə keçmək üçün Çin səddini aşmaq lazım idi.Cəbə səddi Ta'i-tonq istiqamətində keçməyə çalışdı.Bu bölgənin mühafizəsi Nəsturi xristianlarından Öngüt türklərinin dəstələrinə tapşırılmışdı.Bu türklər isə Çingizin qohum və müttəfiqi idi.Çingiz qızını tayfa rəhbəri Alaquş Tiginin oğluna vermişdi.Hətta Çingizin qızı Alaqa-beki bir müddətdən sonra ağlı və bacarığı ilə Öngüt türklərinin lideri olmuşdur.Edilən daha bir evlilik bu qohumluq bağlarını möhkəmlətmişdi.Buna görə də yürüş zamanı bu dəstə Cəbənin rəhbərliyindəki monqol ordu hissələrinə qatıldı.[3,s.64] Çingiz isə ən kiçik oğlu ilə Çin səddinin Şan-tu istiqamətindən hərəkət edirdi.Digər 3 oğlu Peçeli istiqamətindən səddi aşaraq irəliləməyə başlamışdı.Çingizin hücum xəbərini eşidən kidan tayfaları 1212-ci ildə Ye-lui-ko rəhbərliyində Çinə sərhəd olan vilayətlərdə üsyan qaldırdılar.Çingiz xana bağlılığını bildirən kidan tayfalarından üsyançıların sayı təqribən 100.000 idi.İmperator bunu özünə və dövlətə qarrşı edilmiş xəyanət olaraq qəbul etmiş, Ye-Lui-Konun nəşini gətirənə yüksək məbləğdə pul vəd etmişdir.(Hətta sümükləri gətirilərsə,onların ağırlığında qızıl verəcəyinə söz vermişdir) Çingiz ən sadiq ordu rəhbərlərindən olan Cəbə liderliyində bir qrup monqol dəstəsini (təxminən 3 min nəfər) üsyana dəstək vermək üçün göndərdi.Çingizin nə üçün Cəbəni seçdiyi müharibənin irəliləyən günlərində anlaşıldı və Leo-yanq şəhərinin qala divarlarını aşmaq mümkün olmadıqda Cəbə hiyləyə əl atdı və geri çəkildi, hiyləyə düşən çinlilər qala divarlarının xaricinə çıxdı.Açıq ərazidə monqol və kidanlar düşməni məğlub edərək şəhəri ələ keçirdilər.(Şəhərin kim tərəfindən ələ keçirilməsi ilə bağlı fərqli bilgilər mövcuddur.Came ət-təvarix əsərində şəhərin fatehinin Cəbə olaraq göstərildiyi halda, Dohsson bu şəxsin elə Ye-Lui-Ko olduğunu müdafiə etmişdir.) [1,s.71].Bu hadisədən sonra Çingiz Ye-Lui-Ko-ya Liao xanı ünvanı verdi.

Bu zaman Çingiz Ta'i-tonq şəhərini ələ keçirtməyə çalışır, amma xeyli çətinliklərlə qarşılaşırdı.Ta i-tonq şəhəri monqollar üçün böyük əhəmiyyət daşıyırdı.Çünki bu şəhərin Si-kinq,yəni "Qərb sarayı" ünvanı var idi.[5,s.225] Nəhayət, çoxsaylı cəhdlərin ardından şəhər alındı.Bu hadisəyə paralel olaraq Cəbə Leo-yanq şəhərini tutmuşdu.(Burada paralel olaraq ifadəsini işlətməyimiz heç də təsadüfi deyildir.Çünki məbələrdə hadisələrin illəri ilə bağlı dəqiq bir məlumat əks olunmamışdır.Lakin hadisələrin gedişindən iki şəhərin fəthinin bir-birinə çox yaxın tarixlərdə baş veridyini görmək olur) Pekinə irəliləyişin sürətləndirilməsi məqsədilə ordu 3 qrupa ayrıldı.Özü və kiçik oğlu mərkəz ordularına, oğulları Cuci, Ögeday və Çağatayı sağ, qardaşları Kasar və Temugeni isə sol ordularının rəhbəri təyin etdi.Bu 3 qrup öz

istiqamətlərində irəliləməli və Pekinin önündə yenidən birləşməli idi.(Dohsson Çingizin ordusunu 4 qrupa böldüyü fikrini irəli sürür.Bu ordu qrupu Pekin şəhərinin şimalında kəşfiyyat xarakterli işlər aparmalı idi.[1,s.72] )

Çingiz xan tərəfində vəziyyət belə olduğu halda, Tszin imperatorluğunda tam əksinə idi.Ölkədə xaos hökm sürürdü.Üst-üstə gələn məğlubiyyət xəbərləri və Çingizin sülh təklifini imperatorun qəbul etməməsi yüksək zümrələrin və xalqın ürəyinə qorxu salmışdı.Elə buna görə idi ki, general Hu-ça-hu imperator Vei-çao-vanqı devirdi, ətrafına öz adamlarını topladı və köhnə imperatorun yerinə qardaşı Hu-anı gətirdi.Hu ça hu Çin səddini keçən Çingizin ordularını paytaxt ətrafında geri oturtmuş, dəstək üçün çağırdığı Kauki 5 min nəfərlə vaxtında çatmadığı üçün imperatordan onun edam edilməsini istəmişdi.İmperator onu Çingizi məğlub etməsi şərtilə bağışladı, fəqət Kauki məğlub oldu.Belə olduqda, Kauki öz adamları ilə Hu-ça-hu-nu öldürüb başını imperatora təqdim etdi və özünün də edam üçün hazır olduğunu bildirdi.Hu-ça-hu kimi təhlükəli gücə sahib generalı öldürdüyü üçün Kauki bağışlandı və ordunun rəhbəri təyin olundu.[1,s.72] Göründüyü kimi general və imperator kimi müharibə dövründə dövlətin idarəedici heyətinin tez-tez dəyişməsi Tszin imperatorluğunun vəziyyətini daha da pisləşdirdi.Xalq Tszin imperatorluğu hərbi qüvvətlərinin sıravi məğlubiyyətlərini qəbul edə bilmir, Çingiz xanın himayəsi altında olmaq üçün fürsət axtarırdı.Dövlət idarəçiliyində etnik azlığın fəal rol oynaması və bölgənin əsas sahibləri olan kidanların onlar tərəfindən idarə edilməsi daxildəki narazılıqları qarşısıalınmaz hala gətirirdi.Bu vəziyyət Çingizin işini xeyli asanlaşdırırdı.Çünki orduda xidmət edən kidanlar Çingizi bir xilaskar olaraq görür və qalaların müdafiəsini qəsdən zəif təşkil edərək düşmənə təslim edir, Tszin imperatorluğu tərəfindən kəşfiyyat üçün yollanan əsgərlər monqolların tərəfinə keçirdilər.Elə bunlardan biri Kiu-Kin və Uannu tərəfindən rəhbərlik edilən ordunun kəşfiyyatçı zabiti Minqan idi.Bütün bunlar bəs deyilmiş kimi, 80 il boyunca Çin dövlətləri ilə sülh içində olan Hialar Çingizin hücumu ilə ona tabe olmuş və fürsətdən istifadə edərək Çinə hücumlar etmişdilər. Çünki Çingiz bu tayfalar üzərinə hücum etdikdə Hiaların Tszin imperatorluğuna etdiyi kömək müraciəti cavabsız qalmış və onlar da məcburən monqollara tabe olmuşdular.Görünür ki, Hia tayfaları Tszin imperatorluğundan gördükləri pis münasibətin əvəzini çıxmaq istəmişdilər. [1,s.72]

Göründüyü kimi Tszin imperatorluğunun vəziyyəti faciəvi idi.Bütün bunlara baxmayaraq, Pekin şəhəri (Pekin sözünün çin dilindəki mənası "Şimal sarayı"-dır.Tszin imperatorluğundan öncə şəhərin adı "Yen-kinq", yəni "məmləkət sarayı" idi.Mənbələrin bir çoxunda gördüyümüz "Cunq-du "adı isə şəhərə Ögedayın üçüncü xələfi tərəfindən verilmişdir və mənası "Mərkəz şəhər" deməkdir.Bunu da qeyd edək ki, şəhərə Cunq-du adının verilmsəi ilə bağlı məlumatı aldğımız mənbədə hadisənin ili 1153 olaraq göstərilmişdir.Məntiqi baxımdan bu ilin düzgünlüyünün qeyri-mümkünlüyü nəzərə alınaraq ilin 1253 olaraq qeyd edilmək istənildiyini, lakin çap zamanı texniki bir xəta baş verdiyini təxmin edirik [1,s.70] )asanlıqla fəth edilə biləcək şəhər deyildi.Köklü bir xalqın paytaxtı movqeyində olan bu şəhər böyük bir mədəniyyətə ev sahibliyi edirdi.Şübhəsiz ki, şəhər yadelli işğallarından qorunmaq üçün bütün imkanlardan

istifadə olunmuşdur.Tanqutlar üzərinə yürüşündə Çingizin mühasirə planından bəhs etmişdik.O, bu planı şəhərləri daha asan ələ keçimək üçün hazılamışdı.Lakin Pekin Çingizin öncəki yürüşlərdə aldığı şəhərlərə bənzəmirdi.Çünki Çingizin möhkəm qala divarları ilə əhatə edilmiş şəhəri mühasirədə saxlayıb, şəhər əhalisini aclıq, susuzluq və qala divarlarına aramsız hücumlarla yorması mümkün deyildi..Kəşfiyyat xəbərlərinə çox önəm verən bir ordu rəhbəri olan Çingiz Pekin kimi bir şəhərin bu məharətlərindən xəbərdar idi.Çingiz həyatında qazandığı təcrübələrlə inanmadığı addımı atmamağı özünə vəzifə etmişdi.[4,s.221-222] Pekin qarşısında bunun bir nümunəsini də görə bilərik.

Şəhərə 3 dəfə edilən hücum heç bir nəticə vermədi.1214-cü ilin yay aylarında vəba xəstəliyinin də yayılması Çingiz xanı vəzifəsini yerinə yetirməyə vadar etdi.Üç tərəfdən sürətli hücumdan çəkinən Tszin imperatorluğunun rəhbərliyində sülh təklifi müzakirə olunurdu.Xaotik bir vəziyyətdə qərar verməkdə çətinlik çəkən ordu rəhbərlərinin bəziləri Çingizin və ordusunun çox yorluduğunu və şəhərdən ediləcək ani bir hücumla darmadağın edilə biləcəyini müdafiə etdiyi halda, digər bir qrup imperatoru sülh təklifi etməyin ən yaxşı yol olduğuna inandırmağa çalışırdı.Hücum fikrini müşavirlərin çoxu tərəfindən dəstəklənmirdi.Bunun səbəbi əsgərlərə olan inamsızlıq idi.Belə ki, əsgərlərin bir çoxunun hücum üçün qaladan çıxması ilə şəhərkənarındakı evlərinə qaçmalarından şübhə duyulurdu.[2,s.170] Danışıqların hamısından xəbərdar olan Çingiz təmkinli davranaraq rəqibinin sülh təklifini gözləyirdi.Gözlənilən sülh təklifi gəldikdə Çingizin ordu rəhbərlərinin israrla mühasirəyə davam etmə təkliflərini rədd etməsi, onun vəzifəsini yerinə yetirməsini göstərir.Sülhə nail olundu və bunun qarşılığında Çingizə bir cürcen şəhzadəsi və cürbəcür hədiyyələr (xüsusilə ipək) verildi.(Bu sülh sazişinin 1211-ci ildə olması ilə bağlı "Moqolların gizli tarixi" əsərində verilmiş məlumat eyni əsərin qeydlər hissəsində düzəldilmişdir.Bəhs edilən ildə Tszin imperatorunun təklifi olsa da, bu Çingiz xan tərəfindən rədd edilmişdir.[2,s.170] Z.V.Toqan öz əsərində bu ili 1212-ci il olaraq qeyd etmişdir.Bunun səbəbi yazıçının əsas qaynaq olaraq "Monqolların sirli tarixi" əsərini qəbul etməsi idi.[6,s.61] )

Çingizin Tszin imperatorluğu üzərinə yürüşü 3 il ardıcıl olaraq davam etmişdi.Ana vətəninə dönmək üçün ordusu ilə şimala doğru hərəkət edən Çingiz yay aylarında Qobi çölündən keçməyin təhlükəli ola biləcəyini düşünərək "çöl iqliminə xeyli uyğun olan Dolon-Nor vadisinə hərəkət etdi".[4,s.223]

Təhlükənin keçdiyini hiss edən Kin imperatoru paytaxtı Nankin şəhərinə köçürmə qərarı aldı.(Şəhərin adı R.Qrossetin əsərində Kai-fonq-fu olaraq qeyd edilmişdir.Nankin şəhərinin adının mənası "Güney sarayı" deməkdir və Sarı çayı sahilində salınmışdır.Paytaxın köçürülməsi hadisəsi "Monqolların sirli tarixi" əsərində 1214-cü ildə Çingizin ikinci yürüşü zamanı baş verdiyi qeyd edilir.)Şəhərdə imperatorun vəliəhdi və 2 ordu rəhbəri şəhərdə qaldı, onun xaricindəki yüksək rütbəli dövlət məmurları Pekin şəhərini tərk etdi.Şəhəri tərk edərkən imperatoru qoruyan kidan dəstələri silahsızlaşdırıldıqları üçün imperator Çingizə şikayət etdilər.(Bu bilgi A.C.Dohssonun əsərindən alınmışdır. Əsərdə deyilir ki, "Tszin imperatorluğuna xidmət edən kidan tayaları Pekini müdafiə üçün saxlanılmış hərbiçilərin əlindən silahlarının və bagirlərinin (atlarının) alınmasına görə üsyan etmiş və üsyan yatırıldıqdan sonra Çingiz

köməyə çağırılmışdır."Çingizin ikinci dəfə səfərə çıxmasının səbəbi bəzi mənbələrdə fərqli qeyd olunmuşdur.Məsələn, "Monqolların sirli tarixi" əsərində yürüşün səbəbi olaraq Cao-qonlara (Sun imperatorluğuna) göndərilmiş elçinin əsir alınması göstərilmişdir, digər bir mənbədə isə səbəb kimi paytaxtın koçürülməsinin aralarında olan sülhə zidd olması qəbul edilmişdir). Həmçinin Pekindəki ordu birləşmələri Çingizin yaxın müttəfiqi olan Leao dövlərinə məxsus olan torpaqları yenidən zəbt etməyə başladılar.Müharibənin gec-tez başlayacağını bilən Çingiz ordularını yenidən Pekinə doğru yönləndirdi.Leao xanına kömək üçün göndərilən ordunun başına Mukali, Pekinin fəthi vəzifəsinin yerinə yetirməsi üçün isə Samuqa təyin edildi.1215-ci ildə yenidən Pekini mühasirəyə alan monqollar Nankindən Pekinin müdafiə qüvvələrinə kömək üçün gələn dəstələr Hoçiendə məğlub etdilər.[3,s.73 ]Mukali isə ustalıqla hazırlanmış bir planla Liao dövlətinin torpaqlarını geri aldı.İlk əvvəl Mukali ordusunun zabitlərindən birini Kin imperatoru tərəfindən bölgəyə təyin edilmiş əmiri öldürmək üçün yolladı.Daha sonra həmin zabit vilayətin yeni əmiri kimi şəhərə daxil oldu və artıq burada Kin imperatroluğunun hərbiçilərinə ehtiyac olmadığını və hər bir hərbiçinin evinə geri dönə biləcəyini dedi.Müdafiəsiz qalan şəhərə Mukali daxil oldu və bütünlükdə Leao dövlətinə aid torpaqlar geri qaytarıldı.[1,s.74]Mukalinin bu yola əl atması şübhəsiz ki, əmrində olan əsgərlərin azlığından qaynaqlanırdı.

Şəhərdə məğlubiyyət əhval-ruhiyyəsi mövcud idi.Xalq üsyan edir, Çingiz ordularının yenidən gəldiyini eşidən şəhər əsilzadələri Pekini tərk edirdi.İmperator öz oğlunu da şəhərdən təxliyə etməyi bacardı.[1,s.74] Xalqı monqolların şəhərdəki hər kəsi öldürəcəyi ilə qorxudur və bu vasitə ilə şəhəri müdafiə etməyə çalışırdılar.Monqol qüvvələri qarşısında şəhərin uzun müddət bu vəziyyətdə müdafiə edilməsi mümkün deyildi.Şəhər qubernatoru təzyiqə dayana bilmədi və intihar etdi.

1215-ci ildə şəhər Çingiz qüvvələrinə təslim oldu.Monqollar şəhər əhalisi arasında qırğınlar törətdi.Bu qırğınlar və yağmalar ilə bağlı əsas məlumatı bu hadisələrə özü şahid olan Xarəzm elçisi Bahaəddin Nasirin "Tabakat-ı Nasiri" əsərindən alırıq. Moqolların nə üçün bu qırğınları törətdiyi ilə bağlı fərqli fikirlər mövcuddur.Monqol qüvvələrinin azlığı səbəbilə bu qırğınları törədildiyi və nəticədə itaət altına alınan xalqların, xüsusilə də Çinlilər kimi "sonu olmayan" xalqı az bir qüvvə ilə idarə etmək üçün məcburi atılan bir addım olduğu fikri daha uyğun görünür.[5,s.226-227 ; s.224] Bəzi tarixçilər isə əslində Çingiz xanın zalım olmadığını müdafiə edir, Şimali Çin yürüşü zamanı kidan tayfalarının könüllü olaraq monqolların tərəfinə keçdiyini və onların Çingiz xanı xilaskar olaraq gördüyünü buna sübut kimi qəbul edirlər.Lakin bu sübut Leo de Hartoqa görə yanlışdır.O bildirir ki, hər bir xalq, hətta monqolları düşməni olan curcenlərin nümayəndələri belə qalib tərəfdə olmaq istəyirdi.Bu o dövrdə baş vermiş müharibələr zamanı rastlanan və yayğınlaşmış bir hadisə idi.[3,s.80] Rene Qrosset isə qırğınları əsərində köçəri bir xalq olan monqolların Pekin kimi bir şəhəri ələ keçirdikdən sonra nə edəcəklərini haqqında məlumatsızlıqları və təcrübəsizlikləri ilə əlaqələndirir və bəzi monqol başçılarının Çingiz xanın qadağalarına riayət edərək yağma ilə məşğul olmadıqlarını qeyd edərək fikrini əsaslandırır.[5,s.226]

Pekinin fəthindən sonra Çingiz şəhərə gəlmədi və Monqolustana qayıtdı (bu hadisə ilə bağlı fərqli düşüncələr mövcuddur.Əsasən qəbul olunan fikir məqalədə qeyd olunan istiqamətdədir .Lakin Dohsson öz əsərində "Çingizin Minqan və Çapar adlı ordu rəhbərlərinin və əsgərlərinin alqış sədaları altında şəhərə daxil olduğunu və şəhərin fəthini bu iki komandirə borclu olduqlarını dediyini qeyd etmişdir ), Kin imperatoruna "imperator" ünvanını aldığını, onan artıq Honan kralı olduğunu və bunu qəbul etməli olduğunu bildirən bir məktub yolladı.Bu təklifi imperator qəbul etmədi.(Çingizin bu təklifini hansı Kin imperatorunun qəbul etmədiyi ilə bağlı müəyyən fikir ayrılıqları mövcuddur.Müraciət edtdiyimiz elmi ədəbiyyatların bəzilərində Çingizin təklifini qəbul etməyən imperatorun Vu-tu-pu (Otubu), bəzilərində isə Siuan Tsongun olduğu bildirilmişdir.Türk yazar Əbdülqadir Yuvalı və Leo de Hartoq imperatorun Siuan Tsong olması haqqında həmfikirdirlər.)

Pekin şəhərinin ələ keçirilməsi ilə Çingiz xan Şimali Çinin əsas hissəsinin işğalını özü başa çatdrımış oldu.Şəhərin xəzinəsinin daşınması üçün Çingiz ən yaxın 3 zabitini şəhərə yolladı. Zabitlər Pekinə çatdıqda burada xəzinənin keşikçisi Hada (Kada) onlara xəzinədən hədiyyə təqdim edir.Digər iki zabit hədiyyələri qəbul etmək istədilər, lakin Şişi-Kutku adlı zabit buna cavab olaraq "Bundan əvvəl Kin imperatoruna məxsus olan Pekin şəhəri və xəzinəsi indi Çingiz xana məxsusdur.Sən onu necə hədiyyə edə bilərsən?".Bu hadisə Çingiz xanın qulağına çatdıqda Şişi-Kutkunun sədaqəni yüksək qiymətləndirərək "Böyük qanuna sadiq qaldı, bundan sonra görən gözüm, eşidən qulağım ol" demişdir.Digər iki zabiti isə sərt bir şəkildə tənbehləmişdi.Bu hadisə bizə həm Pekinin zəngin xəzinəsi, həm də Çingiz üçün sadiqliyin nə qədər vacib olduğunu bir daha göstərir.

Çingiz geri dönərkən Samuqa börgeyə Çinin işğalının başa çatdırılması təlimatını vermişdi.Samuqa 1216-1217-ci illərdə Ordos və Şensi əyalətləri üzərinə hücumlar etmiş, hətta Tszin imperatorluğunun yeni paytaxtı Nankin şəhərinə yürüş təşkil etsə də, uğurlu ola bilməmişdi.Çingiz xan çox çətinliklə ələ keçirdiyi bu bölgənin idarəsi üçün Mukali noyonu təyin etmişdi.Türkiyəli professor Əbdülqadir Yuvalı öz kitabında Mukalinin ilk başda Cəbə kimi döyüşkən bir cəngavər olmadığını, lakin idarəçilik bacarıqlarının çox yüksək səviyyədə olduğunu qeyd etmişdir.[4,s.227] Mukalinin Çini idarə etdiyi 1215-1223-cü illərdəki vəziyyətə baxdıqda Çingizin çox düzgün bir təyinat həyata keçirdiyinin şahidi oluruq. "Mukali Çində olduğu müddətdə bir dəfə də olsun məğlubiyyət üzü görmədi" ifadəsi onun 7 il ərzində buradakı uğurlarını anlamağımıza köməklik edir.Mukali nisbətən kiçik bir ordu ilə (təxmini 23.000 nəfərlik,bəzi yazıçılar 40-70 min nəfər olduğuğunu da söyələyir [3,s.77] ) Tszin imperatorluğunu Honan əyaləti çevrəsinə sıxışdırmağı bacarmışdı.Mukalinin yürüşlərinin çox uğurlu olduğunu isbat edən bir digər fakt da Çingizin "Honan əmiri" ləqəbini təhqir hesab edib, geri çevirən Kin imperatoru 1220-ci ildə Huanq-ho vilayətinin şimalını və Çingizin vassalı olmağı təklif etmiş və sülh istəmişdi.İmperatorun yeganə istəyi isə ünvanının əlindən alınmaması idi.Çingiz xan sülh təklifinin bütün maddələrini qəbul etsə də, Siuan Tsoqun imperator ünvanının əlindən alınmaması şərtini qəti şəkildə rədd etdi.1222-ci ildə Mukalinin dəhşətli hücumu qarşısında aciz qalan imperatorun digər təklifi isə bu ildə artıq Huanq-honun şimalını tamamilə əlində tutan

Çingiz tərəfindən geri çevrildi.[3,s.78] Çingizin "Çinin fəthini tamamla" əmrini yerinə yetirmək üçün əlindən gələni əsirgəməmiş[1,s.78], fəthi özü tamamlaya bilməsə də, Şimali Çinin çox böyük bir qismini ələ keçirmişdir.Çingiz Mukaliyə atadan oğula irsən keçən "Quo Vanq" (Məmləkət şəhzadəsi) titulunu vermişdir.Mukali əhali arasında bu titul ilə tanınırdı.[1,s.78] Mukalinin ölümündən sonra onun yerinə oğlu Bol keçmiş və Çingizin oğlu Çağatay dönəmində Çində Monqol əmiri olaraq xidmət etmişdir.[4,s.228]

## Nəticə

Çingiz xan şübhəsiz ki, tarixin ən güclü liderlərindən biridir. Bir çox nüfuzlu qəzet və jurnalların dəyərləndirməsində son min ilin ən böyük adamı olaraq yer alır.Bütün bunlara baxmayaraq Çingiz xan tarixin ən mübahisəli şəxslərindən hesab olunur.Fəth etdiyi yerlərdə həyata keçirdiyi qırğınlar və mədəniyyət abidələrinin dağıdılması Çingizin tarixdə zalim və qana susamış kimi görünməsinə yol açmışdır.Xüsusilə müsəlman ölkələrinə etdiyi dağıdıcı yürüşlər və varislərinin 628 illik Ərəb Xilafətinə son qoyması İslam tarixçiliyində ona qarşı qeyri-obyektiv yanaşmalara səbəb olmuşdur.Bu düşüncələr tamamilə yanlış deyil.Çingiz xanın yürüşlərinin təxminən 40 milyon insanın ölümünə səbə olduğu məşhur bir faktdır.Lakin tarixi yanaşmalarda hər dövrün özünə uyğun qanunları olduğu da unudulmamalıdır.Bu dövdə Çində pərakəndə vəziyyət, İslam aləmində məzhəb savaşları, Böyük Səlcuq dövlətinin parçalanması ilə yaranan siyasi boşluq, Xaç yürüşləri Çingiz xanın yürüş istiqamətində əhalinin narazılıqlarının artmasına, monqolların qarşısında dura biləcək vahid bir gücün olmamasına gətirib çıxarmışdı.Nəticədə Çingiz onun dövrünə qədər dövlətçilik keçmişləri olmayan bir millətə nəhəng bir imperiya bəxş etmişdir.Qırğınlar, dağıntılar olmuş olsa da, o, dünya tarixinə eyni zamanda çox böyük hərbi zəka və yüksək liderlik bacarığı ilə adını yazdırmışdır.

Çingiz ilə bağlı yeganə mübahisə onun tarixdəki yeri ilə bağlı deyildir.Çingizin türk olması ilə bağlı bir çox mülahizə mövcuddur.Dünya tarixçilərinin və türkoloqların böyük bir qismi Çingizin türk yox, monqol olduğunu qəbul edirlər.Çingiz xanın özü türk olmasa da, qurduğu imperiya türk dövlətçilik ənənələrinə uyğun idarə edilirdi.Çingizin ordusu və istifadə etdiyi hərbi taktikalar qədim türk dövlətlərininkilər ilə oxşarlıq təşkil edir.Bunun bir neçə səbəbi vardır.Bunlardan biri türklərin də, monqolların da çöl xalqı olmasıdır.Bu xalqların nümayəndələri öz həyatlarını demək olar ki, at belində keçirirdilər.Əsas peşələri maldarlıq, ovçuluq və dəmirçilik olduğu üçün qılınc ustası və mahir oxçu idilər. Məğuliyyət sahələri ilə əlaqədar olaraq bir yerdən başqa yerə hərəkət etdikləri üçün daim təhlükəli vəziyyətlərlə üz-üzə qalır və tez-tez digər tayfalarla mübarizə aparırdılar .Digər bir səbəb isə dövlət sistemlərinin türk törəsinə uyğun olması idi.Bu çox normaldır.Çünki eyni coğrafiyada yaşayan iki xalq çox oxşar mədəniyyətlərə sahib idi.Əfsanələri, inancları, həyat tərzləri və hətta hədəfləri belə eyni olan bu iki xalqın nümayəndələri qarşılarına çıxan problemlərə eyni reaksiyaları verirdilər.Üstəlik qeyd etdiyimiz kimi Çingiz xanın baş məsləhətçilərindən bir çoxu uyğur türkü idi.Monqolların əraziləri genişləndikdən sonra Çingiz xanın imperiyasını oğulları arasında bölməsi və daha sonra yaranmış idarəçilik sistemi buna ən yaxşı misal ola bilər.Çünki bölünən 4 ulus ayrı ayrılıqda dövlət kimi görünsə də, onlar bir çox məsələdə mərkəzlə

məsləhətləşməli olurdu, yəni bu dövlətlər bir növü mərkəzin uzaq bölgələrdəki "nümayəndəlikləri" idi.Biz bu sistemi Böyük Hun imperiyasından başlayaraq bir çox türk dövlətində görə bilərik.Elə buna görədir ki, bir çox tarixçi Çingiz xanın qurduğu dövləti Monqol-türk dövləti kimi adlandırır.

Həm dünya, həm də türk tarixi üçün çox önəmli şəxsiyyətlərdən olan Çingizin hərbi yürüşlərinin və idarəçiliyi araşdırılmağa möhtacdır.Çingiz xanın yaratdığı dövlət türk idarəçilik ənənələrinin davamı üçün keçid rolunu oynayır.Belə ki, IX əsrə kimi Mərkəzi Asiyada formalaşan və inkişaf edən türk idarəçilik mexanizmini XIII əsrdə yaranmış Monqol imperatorluğu. (və ya Türk-Monqol imperatorluğu) etdirmiş, bu mexanizmi əvvəlcə Elxanilər və Teymurilər dövlətinə, oradan da Azərbaycanda yaranmış türk dövlətlərinə-Qaraqoyunlulara,Ağqoyunlulara və Səfəvilərə ötürmüşdür.Üstəlik Sakit okeandan Avropaya qədər böyük bir ərazini qısa bir müddətdə hakimiyyəti altına alan monqolların bunu necə bacardıqlarını analiz etmək tarixçilik naminə çox əhəmiyyətlidir.Çöl xalqlarının əzəli düşməni olan Çinə edilən ilk yürüşə baxdığımız zaman Çingiz xanın uğurunun sirrini açıq-aydın görə bilirik.Bəs Çin yürüşü ərzində Çingiz xanın ordusunu qələbəyə aparan faktorlar nələr oldu?

Çingiz xan qurduğu dövlət üçün ilk illərdə çox çətin bir hədəf müəyyənləşdirmiş, düşünülmüş addımlarla bu işi bacarmışdır.Təbii ki, bu dövrdə çinlilərin güclü olmaması, dövlət daxilində X əsrin əvvəllərindən bəri davam edən çəkişmələr, rəqibi zəif görmək və Çin hökmdarlarının özündən razılığı kimi səbəblərə baxdıqda Çingizin bir az da şanslı olduğunu görə bilərik.

Monqol qüvvələrinin şəhər qala divarlarına qarşı mühasirə təcrübələrinin və lazımi texnikalarının olmaması, dövlətin hələ yeni qurulmuş və ordunun yeni formalaşdırılmış olması, yaşadıqları iqlimə uyğun olmayan bir bölgədə, ailələrindən uzaq illərlə müharibə aparmaları, vəba kimi öldrücü xəstəliklərin yayılması monqolların zəif tərəfləri idi.Çünki ələ keçirdikləri yerlərdə nə edəcəklərini, necə davranacaqlarını bilmir, bir neçə hücumun təcrübəsilə şəhəri tuta bilir və şəhərdə möhkəmlənirdilər.Bu qədər mənfi cəhətlərin qarşısına isə Çingizin dahicəsinə addımları orataya çıxırdı.Hadisələri təhlil edərkən bəlli olur ki, Çingiz səhvlərindən dərs çıxarır və bir insan olaraq görmədiyi səhvləri, anlaya bilmədiyi məsələləri müşavirlərlə məsləhətləşərək həll edirdi.Bunun nəticəsi idi ki, Tanqut kimi Çinin 3 dövləti içində ən zəif hesab edilən dövləti yanlız 3 yürüşün ardından məğlub etməyi bacaran, digər Çin dövlətləri tərəfindən ciddi rəqib olaraq görülməyən, asılı bir rəhbər olaraq qəbul edilən dövlətin az müddət sonra Çinə diz çökdürdüyünün şahidi oluruq.

Çinin fəthi Çingiz üçün çox vacib idi.İlk olaraq, yeni qurulan dövlətin sağlam təməlləri olan iqtisadiyyata sahib olması həyati bir məsələ idi.Ticarət yollarının mərkəzi olan zəngin Çini ələ keçirmək Çingiz xanın atacağı sonrakı addım üçün ona lazım idi.Görünür ki, Çingiz xan ilk məqsədini uğurla həyata keçirmişdi.Leo de Hartoq əsərində Çindən çox böyük qənimətlə geri dönüldüyünü, hətta zənginlik səbəbilə monqol dövlətinin aristokrasiyasının köçəri olan həyat tərzlərinin nisbətən dəyişdiyini, lakin Çingizin onlara yaşam tərzlərinə və qanunlarına bağlı qalınmaqlarını tələb etdiyini qeyd etmişdir.[3,s.79] İkinci olaraq qərbə doğru genişlənmə planı olan Çingizin orduya ehtiyacı var idi.Çinin fəthi ordunun ləvazimat

əksikliyini azaltmış, min illərdir oturuşmuş və çox ağıllı Çin mühəndislərini ordu sıralarına qatmışdı.Çinin fəthi Çingiz üçün böyük təcrübə olmuşdu.Çini məğlub edən fateh hər yeri ala bilərdi.Burada qazandığı təcrübələri qərbə etdiyi səfərlərdə istifadə etmiş, Xarəzmşahın 1219-cu ildəki yürüşdə qalalara doğru çəkilməsi heç bir işə yaramamışdır.

Çin Böyük İpək yoluynun başlanğıcı idi və şimalda bir çox ehtiyacı mövcud olan monqollar üçün ticarət vacib olduğu üçün Çingiz ticarət yollarının təhlükəsizliyinə böyük önəm verirdi.

Çingiz xanın Çin ilə müharibədə qazandığı təcrübə onun qanunlarının formalaşdırmasına da kömək etmişdir.Belə ki, müharibə zamanı edilən səhvlər təhlil edilmiş, bunların digər hərbi səfərlərdə təkrarlanmaması üçün yeni qadağalar ortaya qoyulmuş, qanunlar verilmişdir.

Nəticə olaraq, Çingiz xanın Şimali Çinə yürüşü uğurla başa çatmış, bölgənin fəthi, əhalinin öldürülməsi Qərb ölkələrini qorxuya salmış və hətta deyə bilərik ki, onlar monqollarla qarşılaşmadan məğlub olmuşlar.Pekinin ələ keçirilməsi və Şimali Çinin tabe edilməsi Çingizin rəqiblərinə monqol ordularının məğlubedilməz kimi görünməsinə yol açmışdır.

## Ədəbiyyat Siyahısı

1. D'Ohsson,A.C. , *Moğol tarihi,* İstanbul, 2008
2.*Moğolların gizli tarihi,* Ankara, 1986,s.169-176
3. Hartog, Leo, *Cengiz han,* Ankara, 2003, s.61-80
4. Yuvalı ,Abdülkadir, *Cengiz han,* Ankara, 2021, s.204-228
5. Grousset, Rene, *Bozkır imparatorluğu,* İstanbul, 1980, s.222-228
6. Togan, Zeki Velidi , *Cengiz han,* 1970 ,s.59-61
7. Roux, J.P. ,*Moğol İmparatorluğu,* İstanbul, 2001
8. Cüveyni ,A.Ata Melik,*Tarih- i Cihangüşa,* Ankara, 2013
9.Harold,L. , *Cengiz han,* İstanbul, 1987
10. Yuvalı, Abdülkadir, *İlhanlı tarihi,* İstanbul, 2019
11.Weatherford, J. , Cengiz han, İstanbul, 2018